# “ADAMIN ADAMI“

*Anarın "Adamın adamı" adlı satirik komediyası görkəmli dramaturq, dəyərli komediyalar müəllifi Sabit Rəhmanın xatirəsinə həsr olunmuşdur. Bəlkə elə bu səbəbdən komediya ilk səhnə təcəssümünü Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrında tapmışdı. Sonra Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulmuşdu. Dram teatrının tarixində rayon teatrında oynanılan hər hansı bir pyesi öz repertuarına daxil etməsi nadir hadisəydi. Məlumdur ki, həmişə əksinə olub, hər hansı bir əsər əvvəl Akademik Teatrda səhnə həllini tapdıqdan sonra respublikamızın ayrı-ayrı teatrlarına ötürülüb.*

*Müəllif remarkasında məlum olur ki, əsərdəki hadisələr "Az. Yaz. Poz" idarəsində 1969-cu ilin yay aylarında başlayır, qış aylarında davam edir və 1970-ci ilin yayında sona yetirdi. Bu Anarın say etibarilə üçüncü, Azərbaycan Dövlət Akademik Dram Teatrında isə göstərilən ikinci pyesi idi. İlk pyesi "Keçən ilin son gecəsi" Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur.*

*"Adamın adamı" satirik komediyasının quruluşçu rejissoru əsərin müəllifi Anar özü idi, rejissorluq işi isə Həsən Turabova tapşırılmışdı, əsas məşqləri də Həsən Turabov aparmışdı.*

Tamaşanın bədii tərtibatını rəssam Elçin hazırlamışdı, musiqisini bəstəkar Emin Sabitoğlu yazmışdı. Rollarda Əliağa Ağayev (İbiş İbişli), Hamlet Xanızadə (Fənd Fərəc), Şəfiqə Məmmədova (Nazlı Qəmzəli), Şükufə Yusupova (Süsən Sünbül), Rafiq Əzimov və Hacı İsmayılov (Fağır Bağır), Safurə İbrahimova və Əminə Babayeva (Balaxanım), Mikayıl Mirzəyev (Tərs Tahir), Zərnigar Atakişiyeva və Əminə Babayeva (Xəbərçi Xədicə), Aqşin Vəlixanlı (Əhməd Biqəm), Məmməd Sadıxov və Muxtar Avşarov (Xoca Zığzığ), Səməndər Rzayev (Əli Əyrizadə), Hamlet Qurbanov və Məcnun Hacıbəyov (Mərd Mazarov), Yaşar Nuriyev (Həfçi Məlik), İlham Əhmədov (Tarik Tərlan), Elxan Ağahüseynoğlu (Bufetçi Ağabala) çıxış edirdilər.

Əsərin yazılış üslubuna uyğun olaraq tamaşa buffonada və karnaval estetikaları əsasında məsxərə, qaravəlli ifadə elementləri üzərində qurulmuşdu, ekssentrik təmayüllü, duzlu-məzəli obrazlar yaradaraq, tamaşaçılara bolluca gülüş bəxş edən aktyorların ifaları qrotesklə zəngin idi.

Bu cəhət də diqqətəlayiqdir ki, Anarın nəsr əsərlərində olduğu kimi səhnə əsərlərində də (janrından asılı olmayaraq) dil gözəlliyi, danışıqda təmizlik, estetik keyfiyyət özünü aydın göstərir. Qulağa xoş gəlməyən, ürəyə, idraka yabançı sözləri (hətta məqamı gəlsə belə) işlətmir. "Adamın adamı" komediyasındakı At Balaxanımın xarakteri, xasiyyəti elədir ki, o söyüş söyməsə olmaz. Bununla belə əsərdə onun dilindən söyüş eşidilmir. Özünü öyən, lovğalanan, puluna güvənən, hər addımda, hər kəsə "pul cırım səninçün?" - deyə qürrələnən baza müdiri Əli Əyrizadənin danışığı və rəftarından hirslənən At Balaxanım "Yox, mən partlayacam. Bura bax, bu qədər pul, pul deyirsən, soruşmaq ayıb olmasın, hardandır səndə bu qədər pul, maaşa baxmırsan?" - deyə soruşduqda Əli Əyrizadə ona "Ay sən öləsən" - deyə onu təhqir etdikdə At Balaxanım özündən çıxır: "Özün öləsən. İki gözüvü bir deşikdən çıxardaram sənin.

Şalvarını çıxardaram sənin" - deyə ona hücuma keçir. Birdən hörmət etdiyi iki sevən gəncə - Bağırla Süsənə müraciətlə "Mən ölüm, siz qulaqlarınızı yumun, sizdən utanıram. Bunu bir yaxşı söyməsəm, ürəyim soyumaz". Bundan sonra Anar remarkada bildirir ki, At Balaxanım söyməyə başlayır. Biz sözləri eşitmirik. Səssiz filmlərdəki kimi ancaq Balaxanımın ağzının açılıb yumulduğunu görürük. Əhməd Biqəmdən başqa hamı qulaqlarını tutur. Söyüb qurtardıqdan sonra Əhməd Biqəmdən soruşur: - "Necə dedim Əhməd dayı?". Biqəm də cavabında deyir ki: - "Əntiqə, söyüşün yeddi mərtəbəsini birnəfəsə çıxdın. Liftsiz-zadsız".

Burası da dəyərlidir ki, Anar öz satirik əsərlərində obrazların xarakterlərinin, xasiyyətlərinin, əməllərinin göstəricisi kimi adlardan da məharətlə istifadə edir. "Adamın adamı"ndakı adlara diqqət yetirək. Süsən Sünbül, Fağır Bağır, İbiş İbişli, Fənd Fərəc, Nazlı Qəmzəli, Tərs Tahir, At Balaxanım, Əhməd Biqəm, Xoca Zığzığ, Həfçi Məlik, Xəbərçi Xədicə, Tərgəldi, Mərd Mazarov, Əli Əyrizadə.

Anarın səhnə əsərlərinin də süjet xəttinin, hadisələrin gedişatı öz təbiiliyi və orijinallığı ilə seçilir.

Akademik Bəkir Nəbiyev bu fikri söyləməkdə tamamilə haqlıdır ki, "... sualların çox, cavabların az olduğu bu dünyada kimliyindən, yaş xüsusiyyətlərindən, həyat tərzindən, şəxsi, əxlaqi keyfiyyətlərindən asılı olmayaraq adamları müşahidə etmək, tanımaq, öyrənmək, mənəviyyatının və həyat tərzinin dərin qatlarına nüfuz etmək, onları düşündürən problemləri araşdırmaq, anlamağa səy etmək və bunların bədii şərhinə çalışmaq bir yazıçı kimi Anarın ən qiymətli cəhətidir".

Satirik komediya janrında yazılmış "Adamın adamı" pyesi və onun tamaşası, müəyyən zəifliklərinə, əyintilərinə baxmayaraq, sözsüz ki, bu cəhətdə maraqlı idi. Hadisələr sarkazm, qrotesk, gülməli, məsxərəyönlü halda cərəyan etdikcə iştirakçıların hər birinin adlarına uyğun xasiyyətləri açılırdı. İdarəyə ayrılmış evin kimə verilməsi məsələsi ortaya çıxanda tamaşanın komizmi güclənir, dramatik çalarları üzə çıxır. Hər kəs evin öz qohumuna verilməsini tələb edir. Tək bircə At Balaxanım belə bir şərt qoyur ki, "Bax, Bağıra versəniz işim yox, ona halaldır. Amma biləm ki, ayrı adama vermisiniz, dağıdaram buranı". Elə bu əsnada İbiş İbişlinin birinci müavini Fənd Cərəc söz yayır ki, guya Fağır Bağırın yüksək vəzifədə olan dayısı var, amma təvazökarlığından kimsəyə demir, elə dayısı da istəmir ki, onun adı hallansın. Bu andan işçilərin xarakter cizgiləri daha bariz açılır. Yaltaqlar, ikiüzlülər, qorxaqlar, acizlər, dayı kölgəsində daldalananlar fağır Bağıra təzim edirlər.

Tamaşa aktyor ifası baxımından da maraqlıydı. "Az. Yaz. Poz" idarəsinin müdiri İbiş İbişli rolunu ifa edən xalq artisti Əliağa Ağayev tamaşaçıları gülüş selinə salırdı. "Adamın adamı" tamaşasındakı İbiş İbişov (Əliağa Ağayev) qorxaq, aciz, savadsız, burnundan uzağı görməyən bir əfəl idi. Müavinləri Fənd Fərəclə Nazlı Qəmzəli onun başında, necə deyərlər, turp əkib, qoz sındırırdılar. İbiş İbişlinin Tərs Tahir, At Balaxanım kimlərini görməyə gözü yoxdur, onlar həqiqəti söyləyirlər, yalan danışmırlar. Onların qəbula gəldiyini eşitdikdə "Çox xoşum gəlir onlardan. Hər axşam onların ucbatından infarkt oluram. Zəhləmgetmişlər...". Aktyor obrazın hər hərəkətini, işini lağa qoymaqdan həzz alırdı.

Hamlet Xanızadə ilə Şəfiqə Məmmədovanın bəzən komik, bəzən də ciddi planda ifa etdikləri Fənd Fərəc və Nazlı Qəmzəli surətləri "Yalan danış, hiylə qur, qorxut, özünə tabe et" fəlsəfəsinə əsaslanırdılar. Hamlet Xanızadənin Fənd Fərəci daha hiyləgər, riyakar, ikiüzlü, çoxbilmiş idi. Xoca Zığzığla Əhməd Biqəmə "Bizim hörmətli ağsaqqallar! Bu idarənin iki direyi! İki sütunu! Vallah sizə baxıram, o şanlı keçmişimiz, dədə babalarımızın at minib qılınc oynatmaları gəlib durur gözümün qabağında... Siz niyə dərd çəkəsiniz. Sizin kimi müdrik qocaları gözümüz üstündə saxlamaq biz cavanların borcudur" - deyən, fəqət diləklərini qulaq ardına vuran Fərəc - Hamlet Xanızadə tərs Tahirin yanına gəlib başqa hava çalırdı "Deyirəm, ay Tahir, bu qocaların da lap ağlı çaşıb e. Bir bəhanə tapıb pensiyaya sürüşdürə bilsəydim bunları, heç dərdim olmazdı. Yıxılıb qalıblar kötük kimi, cavan kadrların inkişafına da mane olurlar. Sözləri-söhbətləri də keçmişdən". Fənd Fərəc həm də ən çətin dolaşıq vəziyyətdən ustalıqla sürüşüb çıxmağı bacarırdı. Hamlet xanızadə fənd Fərəcin bütün iç üzünü məharətlə, incə aktyor ştrixləriylə, müəmmalı baxışı, jestləri ilə açıb göstərirdi.

İdarə müdirindən və onun birinci müavini Fənd Fərəcdən yanıqlı olan, onlardan qisas almağın vaxtı çatdığını düşünən ikinci müavin Nazlı Qəmzəli iclas zamanı "Ay yoldaşlar, bilin və agah olun - Xaspoladov dediyimiz adam heç yerli-dibli olmayıb. Sizi aldadıblar. Fərəclə İbişli aldadıb..." deyə camaatı duyuq salır. Müdiriyyət tərəfindən aldadıldıqlarını bilən işçilər hay-küy qoparırlar. Bu qərara gəlirlər ki, onların üçünü də İbiş İbişlini, Fənd Fərəci və Nazlı Qəmzəlinin özünü də - yəni bu fırıldaqçıları qovmaq lazımdır.

Tamaşada İbiş İbişliyə, Fənd Fərəcə, Nazlı Qəmzəliyə, Mərd Mazarova, Xəbərçi Xədicəyə əks qütbdə dayanan iki obraz - Tərs Tahir və At Balaxanım obrazları da diqqəti çəkirdi. Həm müəllif, həm də aktyorlar tərəfindən hörmətlə yaradılan bu obrazlar tamaşanın işıqlı keyfiyyətini artırırdılar. Tahirin tərsliyi onun ədalətli, doğruçu, haqsevər təbiətindən doğurdu. Aktyor Mikayıl Mirzəyev obrazı tamaşaçıya məhz belə təqdim edirdi. Safurə İbrahimova ilə Əminə Babayeva da coşğunluqla

yaratdıqları At Balaxanım obrazının əsas keyfiyyəti kimi düzlüyü, təmizliyi götürmüşdülər.

Aqşin Vəlixanlının düşüncəli şəkildə ifa etdiyi Əhməd Biqəm obrazı səhnəyə Cəfər Cabbarlı havası gətirirdi. Adama elə gəlirdi ki, Əhməd Biqəm ayrı-ayrı dövrlərdə İbiş İbişli, Fənd Fərəc, Nazlı Qəmzəli, Mərd Mazarov, Xəbərçi Xədicə ilə dəfələrlə üzləşmiş, onlara qarşı üsyan bayrağı qaldırmış, lakin istədiyinə nail olmamışdır. İndi isə yaşının qürub çağında hər şeyə biganə qalmış, bu dünya düzələn dünya deyil fikri ilə könlünü içkiyə bağlamışdır. Onun yerinə etdiyi uyğun hərəkətlər, dediyi sözlər tamaşaçını çox şeydən agah edirdi. İbiş İbişlinin ona tapşırdığını "Düzələr", "Baş üstə", "Təşkil edərik", "Ayıb sözdür ki, arxayın olun", "Əşi kefini pozma" sözləri ilə qarşılayırdı, gedəndə isə İbişlinin gözünü yayındırıb qeydlər etdiyi kağızı büküb zibil qutusuna atıb, otaqdan çıxırdı...

Pulun gücünə vurma cədvəlini də dəyişdirmək olar", "...Adə, dara-bara salma... Əlbət bu kişinin oğlu qanqala yaxşı bələddir də", "Səni alan evində gərək bir milisioner saxlasın", "Maşallah, deyəsən bu da çənədən sazdır.", "İbişli? Bu nə işdi? Tahir sənə yaman girişdi! Aralıqda Həfçi Məlik ilişdi?", "Bu da belə getdi", "Deyirəm Səbzəliyev də xosumbay oldu", "Tez elə ki, fələyin işini bilmək olmaz", "Loğman deyib ki, Allah olmasaydı, onu yaratmaq lazım idi", "Qaz ki, çıxdı, deməli lazımdır ki, çıxsın", "Camaat bunu dayısı olanda öpürdü, sən dayısız qalanda öpürsən, hər işin tərs-məzhəbdir", "Bə nə? Adamın gərək hər yerdə adamı olsun" və s. sözləri yerinə, məqamına, vəziyyətə görə elə ustalıqla işlədirdi ki, tamaşaçı həm gülür, həm də düşünürdü.

Tamaşa müəllif mətninə uyğun olaraq maraqlı, xoşagəlim bir sonluqla bitirdi. At Balaxanım, Tərs Tahir, Fağır Bağır və Süsən Sünbül yüngül, qəşəng yaz paltarında səhnədəydilər, qışsayağı bərk-bərk geyinmiş İbiş İbişli, Fənd Fərəc, Nazlı Qəmzəli, Mərd Mazarov, Həfçi Məlik, Xəbərçi Xədicə ön səhnəyə çıxırdılar. Onların hamısının qoltuqlarında xoruzlar görünürdü. Onlar Bağırın dəstəsini görüb soyuqdan üşüyən adamlar kimi titrəyirdilər, bir-birinə qısılıb əsə-əsə səhnədən gedirdilər. Əhməd Biqəm hər iki dəstəyə işarə ilə Xoca Zığzığdan "Biz hansılardanıq?" deyə soruşurdu, sonra Bağırgili göstərib: "Gəl bunlarla gedək, deyəsən axı gələcək bunlarındır" - deyirdi. Sonra aralarında xoş niyyətli dialoq gedirdi. Birdən Əhməd Biqəm məsləhət görürdü ki, Bağıra desinlər ki, dayısı onları növbəsiz buraxdırsın, desin ki, öz adamlarımızdır. Bu sözə heyrətlənən Xoca Zığzığ "Dəlləkxanada nə tanışlıq?" - deyə soruşanda Əhməd Biqəm zarafatla "Bə nə, adamın gərək hər yerdə adamı olsun" - cavabını verirdi. Sonra bütün iştirakçılar səhnəyə çıxıb musiqinin müşayiəti altında xorla oxuyurdular.

*Adamın adamı onun özüdür*
*Bir-ikisi deyil, mini, yüzüdür.*
*Hər bir gözə dümdüz baxan gözüdür.*
*Arif ol, dayıva arxalanma çox.*
*Adamın gərəkdir gözü tox olsun.*
*Yaxşı insanların sayı çox olsun.*
*Qorxaq, yaltaq, paxıl tamam yox olsun*
*Adamın adamı onun özüdür*
*Xalqın qarşısında açıq üzüdür.*

***Gülnarə HÜSEYNOVA***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi***